# QARABAĞ VƏ ƏTRAF ƏRAZİLƏRDƏ TÖRƏDİLƏN EKOLOJİ TERROR

Azərbaycanın füsunkar və dilbər guşəsi, dünyada çox nadir və təkrarolunmaz iqlimə, bitki örtüyünə və heyvanlar aləminə malik olan Qarabağ torpaqları uzun illər düşmən tapdağı altında qalmışdı. Nəhayət, II Qarabağ müharibəsi zamanı bu torpaqlar işğaldan azad olundu. Vətən müharibəsi nəticəsində eyni zamanda yalnız Azərbaycan üçün endemik olan, dünyanın heç bir yerində təbii halda rast gəlinməyən bir çox bitki növləri ilə yanaşı, heyvan növləri də düşmən tapdağından azad edildi.

Qarabağ ərazisində bir çox bitki növləri, o cümlədən Hirkan şümşadı, Qafqaz xədicəgülü, gözəl təkəsaqqal, ayı fındığı, adi şabalıd, Şərq çinarı, sağsağan gülxətmisi, təkdənli buğda, Qarabağ dağlaləsi və s. yayılmışdır.

Azərbaycanın Şuşa, Laçın, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları dərman bitkilərinin vətəni hesab olunur. Bu ərazilərdə kəklikotu, qantəpər, qırxbuğum, andız, itburnu, əvəlik, erkək qıjı, qatırquyruğu, boymadərən və s. dərman bitkilərinə rast gəlinir. Müalicə məqsədilə dərman bitkilərinin yarpağından, kök və kökümsovlarından, tumurcuğundan, ağac və kolların qabıqlarından istifadə olunur.

**TAPŞIRIQ:**

Verilmiş bitkiləri qruplaşdırın: *çobanyastığı, qızılgül, jenşen, buğda, xlorofitum, pişikotu, diffenbaxiya, yemişan, qarğıdalı, çəltik, nanə, südləyən, aloe, arpa, kəklikotu*

| Dekorativ bitkilər | Dərman bitkiləri | Dənli bitkilər |
|---|---|---|
| | | |

**Qarabağ və ətraf ərazilərdə yayılan dərman bitkiləri və onların əhəmiyyəti:**

*Atəvəliyi* – kökünün həlimindən mədə-bağırsaq xəstəliklərinin müalicəsində istifadə olunur. Əvəlik aşı ishalın qarşısını almaqla yanaşı, mədənin həzmetmə prosesini yaxşılaşdırır və iştahanı artırır. Atəvəliyinin tərkibində üzvi turşular, C, B1 və A vitaminləri, kalsium, dəmir duzları və başqa maddələr də vardır.

*Qış qırxbuğumu* – yerüstü hissəsindən iltihab əleyhinə, böyrək xəstəliklərinin müalicəsində və qankəsici kimi istifadə olunur.

*Çöl qatırquyruğu* – böyrək xəstəliklərinin müalicəsində, iltihab əleyhinə və qankəsici kimi istifadə olunur.

*Qəhvəyi itburnu* – dərman məqsədilə meyvələrindən istifadə olunur. B, C vitaminləri ilə zəngindir. Raxitin, qanazlığının, vərəmin müalicəsində, sidik və öd yolları xəstəliklərində geniş istifadə olunur.

### MARAQLI MƏLUMAT

*E.ə. IV əsrdən başlayaraq indiki Qarabağ torpağı müstəqil Qafqaz Albaniyası dövlətinin tərkibində idi. Bu torpaq özünün zəngin təbiəti və şəfalı bitkiləri ilə seçilirdi. Qarabağın şəfalı bitkilərinə qədim Babilistan, Roma, Yunanıstan və hətta Misir əzcaxanalarında rast gəlmək olurdu. Onların arasında dazıotu, andız, çobanyastığı və məşhur xarıbülbül (Qarabağ endemiki) də var idi. E.ə. I əsrdə Romanın Qafqaz Albaniyası ilə müharibəyə başlamasının əsas səbəblərindən biri də məhz Qarabağın zəngin təbii sərvətlərinə yiyələnmək idi.*

*Roma imperiyası ilə Albaniya arasında bağlanan sülh müqaviləsinin bir bəndinə əsasən, Albaniyadan yığılan bitkilərdən dərmanlar hazırlanmalı və kiçik şüşə qablara doldurularaq Romaya verilməli idi. Beləliklə, hələ eramızın əvvəlində Qarabağda yetişən dərman bitkiləri tibbi məqsədlərlə istifadə edilirdi.*

Ermənistanın işğalına qədər Qarabağ heyvanlar aləminin müxtəlifliyi ilə də seçilirdi. Bu ərazilərdə məskunlaşmış fauna növləri sırasında quru onurğalıları xüsusilə üstünlük təşkil edirdi.

Burada canavar, çaqqal, çöldonuzu, porsuq, bezoar keçisi, kirpi, cüyür, bəbir, Qafqaz meşəpişiyi, vaşaq, qonur ayı, dovşan və müxtəlif gəmiricilər; toğlugötürən, kərkəs, bildirçin, alabaxta, göyərçin, kəklik, turac kimi quşlar, onurğasızlardan ən geniş yayılan və zəngin növ tərkibinə malik həşəratlar yaşayırdı. Lakin təəssüflə qeyd etməliyik ki, erməni işğalçıları tərəfindən nadir və nəsli kəsilməkdə olan cücülərin yaşadığı biosenozlar dağıdılmış, onların qidalandığı bitkilər və faydalı cücülər məhv edilmişdir.

Qarabağ və ətraf rayonlarda suda-quruda yaşayanlardan quru qurbağası, göl qurbağası, adi ağac qurbağası və s., sürünənlərdən Xəzər tısbağası, Qərb yatağanı, Qafqaz kələzi, qonur ilan və s., daxili su hövzələrində Qafqaz enlibaşı, çay foreli, Kür qızılbalığı, adi yastıqarın və s. kimi balıqlar yayılmışdı.

Bu ərazilərdən keçən təbii su mənbələrimiz Oxçuçay və Ağstafaçay, Bərgüşad çayı, Həkəriçay və digər çaylar Ermənistan tərəfindən ən ağır formada çirkləndirilmiş və nəticədə bu çayların canlı aləmi, demək olar ki, məhv olmuşdur. Bərgüşad çayı Ermənistan ərazisində yerləşən iri yaşayış məntəqələrinin sənaye və məişət-çirkab suları ilə çirklənmiş və çayın zəngin balıq növləri ermənilər tərəfindən talan olunmuş, kimyəvi maddələrlə kütləvi şəkildə qırılmışdır.

Qarabağ eyni zamanda “Qırmızı kitaba” düşmüş nadir və nəsli kəsilmək təhlükəsi olan bitki və heyvanların vətənidir. Qafqaz xədicəgülü, gözəl təkə-saqqal, adi şabalıd, Qarabağ dağlaləsi, sağsağan gülxətmisi və s. bitki, Qafqaz tetrası, çöl qartalı, berkut, qara leylək, məzar qartalı və s. heyvan növləri “Qırmızı kitab”a düşmüş növlərdir.



*Qara leylək*



*Qafqaz tetrası*



*Məzar qartalı*

2013-cü ildə Azərbaycan Respublikasının “Qırmızı kitabı”nın 2-ci nəşri hazırlanmış, lakin Qarabağın işğal altında olan əraziləri, o cümlədən Füzuli, Ağdam, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər və s. ərazilərdə yayılan bitkilər barədə heç bir yeni məlumatlar əldə etmək mümkün olmamışdır. İşğal altında olan meşələrdə (Laçın, Kəlbəcər, Ağdərə rayonlarında) qiymətli fıstıq, cökə, vələs, palıd ağacları qırılaraq yandırılmış və meşələrimiz məhv edilmişdir. Bu ərazilərdəki qoruqlar antropogen amillərin mənfi təsirinə məruz qalaraq talan edilmişdir.

Qarabağ ərazisində bitən daş səhləbi (xarıbülbül), Şuşa gəvəni, qaraçöhrə, Qarabağ dağlaləsi, məryəm noxudu, Şuşa xaşası, azad ağacı, ştrenbergiya kimi təbiət incilərimizin son durumu isə bizlərə hələ bəlli deyil.



*Şərq çinarı*



*Xarıbülbül*



*Qarabağ dağlaləsi*





Erməni işğalçıları Ağdam, Füzuli, Cəbrayıl, Tərtər və Xocavənd rayonlarının ərazilərini düşünülmüş şəkildə od vuraraq yandırmışlar. Qəsdən törədilmiş yanğınlar nəticəsində meşə sahələri yanaraq məhv olmuş, torpağın üst münbit qatı yararsız hala düşmüş, ətraf mühitə və canlı təbiətə çox ciddi ziyan dəymişdir. Şuşa meşələrinin yandırılması zamanı ağ fosforlu top mərmilərindən istifadə edilmişdir. Bu silahlardan istifadə insan sağlamlığı üçün də təhlükəlidir. Dəri vasitəsilə sorulan fosfor insan bədənində uzun müddət qala bilir, bir sıra daxili orqanları zədələyir, yaxud ölümlə nəticələnir.

Göründüyü kimi, II Qarabağ müharibəsi zamanı işğaldan azad olunan Qarabağ və ətraf ərazilər uzun illər erməni işğalçıları tərəfindən tarixi, mədəni abidələrin dağıdılmasına, flora və faunanın bir çox növlərinin məhvinə və ətraf mühitin çirklənməsinə məruz qalmışdır. Torpaqlarımızın geri qaytarılması nəticəsində Qarabağ və ətraf rayonların canlılar aləmi mənfur düşmənin ekoloji terrorundan qurtulmuşdur.

Azərbaycan Respublikası ekoloji mühitin sağlamlaşdırılmasını strateji məqsəd sayır. Müasir dövrdə təbiətdən istifadə nə qədər aktualdırsa, onu qorumaq, bərpa etmək bir o qədər əhəmiyyətlidir. İnanırıq ki, yaxın gələcəkdə bu ərazilərin canlılar aləminin bərpasına nail olacağıq.

**Hazırladı:** Nüşabə Məmmədova
Könül Mahmudova